# Zəfər paradı göstərdi ki, Azərbaycanın hərbi qüdrəti danılmazdır

**_Bir il öncə – dekabrın 10-da paytaxtın Azadlıq meydanında təşkil olunmuş möhtəşəm Zəfər paradı dövlətimizin suverenliyinin və ərazi bütövlüyünün təmin olunmasının bayramı idi. Azərbaycan cəlb edildiyi hərbi münaqişədə düşmənin silahlı qüvvələrini məğlub edərək böyük qələbə qazanmış və torpaqlarımızı işğaldan azad etmişdi._**



Tarixi Zəfər paradını anbaan izlədikcə, ehtiyatda olan zabit kimi daha çox iftixar və qürur hissi keçirirdim. Ordumuzun modern hərbi texnikasının nümayişi kök-sümü qabardırdı. Üç min nəfərlik şəxsi heyətin və türk mehmetciyin keçidi bir ayrı mənzərə idi. Biz Vətən müharibəsində həmin sayda şəhid vermişdik. Odur ki, torpaq uğrunda canlarından keçmiş igid ərənlərimizin ruhuna dualar oxudum. Qəhrəman qazilərimiz də özlərinin hərbi libaslarını geyinib parada gəlmişdilər. Hər kəs kimi, mən də onları alqışlayır, hər birinə şəfalar diləyirdim.

Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandanımız İlham Əliyevin və daim yanımızda olan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın paraddakı parlaq çıxışları bizə bir daha xatırlatdı ki, müharibədə qələbə heç də asanlıqla başa gəlməyib. Deməli olar ki, dünya gücləri hamılıqla Ermənistanın təəssübünü çəkir, əzəli torpaqlarımızın düşməndən azad olunmasına əngəl törədirdilər. Bizə qarşı nə qədər gizli-aşkar təzyiqlər oldu, erməni ordusu bir ucdan silah-sursatla təchiz edildi, ruhlandırıldı. Amma möhtərəm Prezidentimizin qətiyyəti, silahlı qüvvələrimizin qəhrəmanlığı və xalqımızın dəmir yumruq halında birləşməsi sayəsində qələbə bizim oldu, haqq və ədalət qalib gəldi.

Həmin gün dövlət televiziyası ilə birbaşa yayımlanan Zəfər paradını ekrandan izləyən dünya azərbaycanlılarının necə qürurlandıqlarını təsəvvür etmək çətin deyildi. Möhtəşəm qələbə, dünyanın hansı guşəsində yaşamasından asılı olmayaraq, hər bir soydaşımızın qəddini düzəltmiş, başını uca etmişdi. Təkcə Şuşa döyüşləri ölümün gözünə dik baxan Azərbaycan əsgərinin qeyri-adi hünərinin təzahürü olmuşdu. Çılpaq və sıldırım qayalara dırmaşan, güllə yarası alsa da, yıxılmayıb irəli gedən və düşməni qabağına qatıb qovan



hərbçilərimiz öz dönməzlikləri ilə dünyanı heyrətə salmışdılar. Bu, o demək idi ki, biz qələbəni təkcə ordumuzun arsenalında olan ən müasir silahların hesabına deyil, həm də və daha çox vətənpərvərliyimiz, cəsarətimiz, göz qırpmadan ölümün üstünə getməyimiz sayəsində qazanmışıq.

Bakının Azadlıq meydanı çox paradlara şahidlik edib. Sovet dövründəki 1 May, 9 May və 7 Noyabr bayramlarını xatırlamaq kifayətdir. Amma Zəfər paradı onların heç biri ilə müqayisəyə gəlməyəcək dərəcədə özəl bir nümayiş idi. Qanla yazılan şərəf tarixinin parlaq səhifəsi, dünya çapında sözünü deyə bilən qalib Azərbaycanın vüqar bayramı idi.

İllər ötsə də, tarixi Zəfər paradımızın xatirəsi köhnəlməyəcək, təəssüratları təzə-tər qalacaq.

***Hikmət XƏLİLOV,***
***Azərbaycan Silahlı Qüvvələrinin ehtiyatda olan zabiti***

Xalq qəzeti.- 2021.- 10 dekabr.- S.4.